

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 35 (22.946)

21 fevral 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Məntəqə seçki komissiyalarının sədrləri və katibləri üçün seminar-müşavirə keçirilib

*Fevralın 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün keçirilmiş seminar-müşavirənin davamı olaraq, 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsində məntəqə seçki komissiyalarının sədrləri və katibləri üçün seminar-müşavirə keçirilib.*

Tədbirdə "Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanması və keçirilməsi prosesində yerli icra orqanlarının vəzifələri və onların seçki komissiyaları ilə qarşılıqlı fəaliyyəti" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov deyib ki, Azərbaycan Respublikası Prezidentinin "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" 2018-ci il 5 fevral tarixli Sərəncamına əsasən növbədənkənar prezident seçkiləri 2018-ci il aprelin 11-nə təyin olunub. Prezident seçkilərinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasında, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında hazırlıq işlərinə başlanılıb.



"Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının, dairə seçki komissiyalarının müasir inzibati binalarla təmin edilməsi, seçki məntəqələrinin fəaliyyəti üçün də zəruri şəraitin yaradılması muxtar respublikada seçkilərin yüksək səviyyədə keçirilməsinə geniş imkanlar yaradır", – deyən Rəhman Məmmədov qeyd edib ki, keçirilən seminar-müşavirə də qarşıdan gələn prezident seçkilərinin ən yüksək səviyyədə keçirilməsi üçün üzərimizə düşən vəzifələrin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır. Qarşıda duran əsas vəzifə prezident seçkilərini ən yüksək səviyyədə keçirməkdir. Seçki Məcəlləsinin tələbinə görə, Mərkəzi Seçki Komissiyası və aşağı seçki komissiyaları vətəndaşların səsvermə hüququnu təmin etmək, seçki subyektlərinin fəaliyyətini qanunun tələbinə uyğun idarə etmək, tədbirlərin qanunauyğun surətdə keçirilməsi üçün müxtəlif dövlət qurumları ilə əməkdaşlıq edir. Ona görə də burada aparılan müzakirələrin nəticəsi atılacaq sonrakı addımlar üçün əsas olmalıdır.

Diqqətə çatdırılıb ki, seçkilərdə şəffaflığın təmini ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının üzərinə ciddi vəzifələr düşür. Nəzərə alınmalıdır ki, muxtar respublikada seçkilərin hazırlanması və keçirilməsi zamanı yerli icra orqanları və seçki komissiyalarının qarşılıqlı fəaliyyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.1.5-ci maddəsinə əsasən tənzimlənir.

Rəhman Məmmədov vurğulayıb ki, vətəndaşların seçkidə iştirak hüquqlarının həyata keçirilməsinə mane olma, vətəndaşı namizədin lehinə imza atmağa məcbur etmə və ya onun səs verməsinə mane olma, seçki komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə, seçki sənədlərinin saxtalaşdırılması və ya saxta sənədlərin təqdim edilməsi, səslərin düzgün hesablanmaması, səsvermənin nəticələrinin düzgün müəyyənləşdirilməməsi və ya səsvermənin gizliliyinin pozulması, başqa şəxslərin yerinə səs verilməsi, bir şəxs tərəfindən seçki qutusuna birdən artıq seçki bülleteninin salınması, seçkinin nəticələrinə təsir məqsədi ilə vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Prezident seçkilərində seçki məntəqələri əməkdaşlarından tələb olunan əsas məsələ səsvermə prosesində qanunvericiliyə ciddi əməl olunmasını, seçkilərin azad, sərbəst, şəffaf, demokratik prinsiplər əsasında keçirilməsini təmin etməkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov əvvəlki seçkilərin təcrübəsindən bəhrələnərək qarşıdan gələn prezident seçkilərinin də ən yüksək səviyyədə təşkil ediləcəyinə əminliyini bildirib.

Sonra Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahovun "Məntəqə seçki komissiyalarının müvafiq inzibati binalarla, həmçinin tələb olunan inventar və avadanlıqlarla təmin olunması", Naxçıvan Şəhər Məhkəməsinin hakimi Mehman Allahverdiyevin "Seçki hüququnun konstitusion əsasları, Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki hüququnun realizə mexanizmləri", Naxçıvan şəhər prokurorunun müavini Qalib İsmayılovun "Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının rolu və vəzifələri", Naxçıvan Şəhər Polis İdarəsinin rəis əvəzi Kamil Məmmədəliyevin "Azərbaycan Respublikası Prezidenti seçkilərində Daxili İşlər Nazirliyi orqanlarının rolu və fəaliyyət istiqamətləri", 4 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyasının sədri Cahangir Seyidovun "Seçki günü məntəqə seçki komissiyalarında səsvermənin təşkili və səsvermə prosesi başa çatdıqdan sonra məntəqə seçki komissiyalarının üzərinə düşən əsas vəzifələr" mövzularında məruzələri dinlənilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Rauf KƏNGƏRLİ**

* * *

Ordubad-Culfa Dairə Seçki Komissiyasında da məntəqə sədrləri və katibləri üçün seminar-müşavirə keçirilib. Tədbirdə Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Rəşadət Orucov "Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanması və keçirilməsi prosesində yerli icra orqanlarının vəzifələri və onların seçki komissiyaları ilə qarşılıqlı fəaliyyəti, məntəqə seçki komissiyalarının müvafiq inzibati binalarla, həmçinin tələb olunan inventar və avadanlıqlarla təmin olunması", Ordubad rayon prokurorunun vəzifəsini icra edən Yusif Abdullayev "Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının rolu və vəzifələri", Ordubad Rayon Məhkəməsinin sədri Elşən Salmanov "Seçki hüququnun konstitusion əsasları. Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki hüququnun realizə mexanizmləri", Ordubad Rayon Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Əli Nəbiyev "Azərbaycan Respublikası Prezidenti seçkilərində Daxili İşlər Nazirliyi orqanlarının rolu və fəaliyyət istiqamətləri", 7 saylı Ordubad-Culfa Dairə Seçki Komissiyasının sədri Həsən Həsənov "Seçkilər günü məntəqə seçki komissiyalarında səsvermənin təşkili və səsvermə prosesi başa çatdıqdan sonra məntəqə seçki komissiyalarının üzərinə düşən əsas vəzifələr" mövzularında çıxış ediblər.



Çıxışlarda qeyd olunub ki, muxtar respublikanın bütün rayonlarında olduğu kimi, Ordubad rayonunda da 7 saylı Ordubad-Culfa Dairə Seçki Komissiyası üzvlərinin normal fəaliyyət göstərmələri üçün hər bir şərait yaradılıb. Belə ki, seçki dairəsi lazım olan inventarlarla, rabitə sistemi və sürətli internetlə təmin edilib. Seçki məntəqələrinin beşində kameralar quraşdırılacaq.

7 saylı Ordubad-Culfa Seçki Dairəsi 48 məntəqəni özündə birləşdirir. Məntəqələrin 41-i Ordubad rayonunun, 7-si isə Culfa rayonunun ərazisində yerləşir. Seçki gününə 5 gün qalmış rayon ərazisində əlavə olaraq 4 seçki məntəqəsi də yaradılacaq.

Vurğulanıb ki, seçici siyahılarının dəqiqləşdirilməsi başa çatdırılıb. Ordubad rayonu üzrə seçicilərin sayı 28 min 657, Culfa rayonu ilə birlikdə seçicilərin ümumi sayı 34 min 530, ilk dəfə səs verəcək seçicilərin sayı isə 170 nəfərdir.

* * *



Kəngərli rayonunda keçirilən tədbiri 3 saylı Babək-Kəngərli-Naxçıvan Dairə Seçki Komissiyasının sədri Zahid Ələkbərov açaraq bildirib ki, dairənin əhatə etdiyi 3 rayonun ərazisində 46 mülki seçki məntəqəsi və 3 qapalı seçki məntəqəsi fəaliyyət göstərir. Həmin mülki seçki məntəqələrinin 21-i Babək rayonu, 18-i Kəngərli rayonu, 7-si isə Naxçıvan şəhəri ərazisində yerləşir. 3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsinin əhatə etdiyi 46 seçki məntəqəsində 41 min 858 seçici qeydə alınıb ki, bunlardan da 20 min 857-si kişi, 21001-i isə qadındır. Dairə üzrə 303 seçici ilk dəfə səs verəcək.

Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıəddin Mehbalıyev bildirib ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi üçün hazırda seçki məntəqələrinin zəruri avadanlıq və seçki günü üçün lazım olan digər vəsaitlərlə təmin edilməsi üçün hazırlıq işləri aparılır.

Kəngərli Rayon Məhkəməsinin sədri Əhliman Xıdırov Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki hüququnun realizə mexanizmləri haqqında danışaraq qeyd edib ki, seçki hüququ vətəndaşların siyasi sistemə təsirini hiss etməyə imkan verən ən əsas hüquqdur. Seçkilərin keçirilməsinin hüquqi əhəmiyyətini başlıca olaraq vətəndaşların aktiv və passiv seçki hüquqlarının həyata keçirilməsinə hüquqi təminatın verilməsi və Konstitusiya ilə müəyyən edilmiş dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının formalaşması təşkil edirsə, onun siyasi əhəmiyyətini ölkədə demokratiyanın vəziyyəti, seçicilərin arzu və istəkləri, onların siyasi, iqtisadi və sosial sahələrdə olan tələblərinin müəyyən edilməsi təşkil edir.

"Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının rolu və vəzifələri" mövzusunda çıxış edən Kəngərli rayon prokuroru, ədliyyə müşaviri Talıb Məmmədov bildirib ki, qüvvədə olan qanunvericiliyə əsasən vətəndaşların seçki hüquqlarını pozan şəxslərə qarşı müxtəlif təsir tədbirləri, məsuliyyət növləri müəyyən edilib. Bu məsuliyyət Azərbaycan Respublikasının Seçki Məcəlləsi, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə tənzimlənir.

Kəngərli Rayon Polis Şöbəsinin rəis əvəzi, polis mayoru Nəsib İsmayılov çıxışında vurğulayıb ki, seçki kampaniyası dövründə və seçkilər günü hüquq pozuntusu hallarına yol verilməməsi üçün aidiyyəti təşkilatlarla yanaşı, daxili işlər orqanları qarşısında da mühüm vəzifələr durur. Bu məqsədlə də, rayon Polis Şöbəsi tərəfindən Azərbaycan Respublikası Seçki Məcəlləsinin, "Polis haqqında" və "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunların və digər qanunvericilik aktlarının tələblərinə əsaslanaraq xüsusi tədbirlər planı hazırlanaraq icraya yönəldilir.

**Xəbərlər şöbəsi**

## Vakant vəzifələrin tutulması üçün test imtahanı olub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya xidmətində vakant vəzifələrin tutulması üçün 15 dekabr 2017-ci il tarixdə elan olunmuş müsabiqənin test imtahanları keçirilir.*

Qeyd edək ki, müsabiqəyə 11 vakant vəzifənin tutulması üçün 125 namizəd sənəd təqdim edib. Test imtahanlarında keçid balını toplamış şəxslər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqlar. İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilib. İmtahanda namizədlərə qanunvericilik üzrə 60, dünyagörüşü üzrə 10, informasiya texnologiyaları üzrə 10, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib. Sualları cavablandırmaq üçün namizədlərə 2 saat 30 dəqiqə vaxt verilib.



Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. İmtahan bitdikdən dərhal sonra namizədlərə cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim edilib. Test imtahanında Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları müşahidəçi qismində iştirak ediblər.

Test imtahanlarının nəticələri gündəlik olaraq operativ şəkildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın *(www.dqmk.nmr.az)* rəsmi internet səhifəsində yerləşdirilib.

Test imtahanları 22 fevral 2018-ci il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

21 fevral Beynəlxalq Ana Dili Günüdür

# Müqəddəs dəyərimiz: Azərbaycan dili

***Milli varlığımız olan ana dilimiz tarixən inkişaf edərək və zənginləşərək bu gün dünyanın hər yerində yaşayan bütün azərbaycanlının istifadə etdiyi ümummilli dil səviyyəsinə yüksəlmişdir.***




Dilin müstəqil inkişafı, zənginləşməsi və nüfuzu bilavasitə dövlətçiliklə bağlı olduğu üçün dil dövlətçiliyin ən aparıcı atributlarından biri hesab olunur. Dövlətçilik zəminində dilin cəmiyyətdəki rolu artır, informasiya imkanları genişlənir. 1919-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dilimizi dövlət dili kimi təsdiqləyib. 1936-cı ildən sonra isə Azərbaycan dili rəsmən dövlət dili sayılsa da, bu, formal xarakter daşımış və dövlət idarələrində məhdud çərçivədə işlənmiş, təqiblərə məruz qalmışdır.

***“Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir”***, – deyən ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin birinci dövründən başlayaraq Azərbaycan dilinin inkişafı istiqamətində məqsədyönlü iş aparmış, mövcud tarixi təcrübəni və müasir dövrün tələblərini nəzərə alaraq mükəmməl dil siyasəti həyata keçirmişdir. Bunun nəticəsidir ki, 1970-ci ildən başlayaraq Azərbaycan dili elmi şəkildə öyrənilmiş, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılmışdır. Ali məktəblər üçün yazılmış dördcildlik “Müasir Azərbaycan dili” dərsliyi 1974-cü ildə məhz ulu öndərin təşəbbüsü ilə respublikanın dövlət mükafatına layiq görülmüşdü. Dahi rəhbər ana dilimizin 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olmuşdur.

Ölkəmiz müstəqillik qazanandan sonra bütün sahələrdə olduğu kimi, dil sahəsində də yeni qanunların qəbul edilməsinə zərurət yarandı. Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ana dilimizin nüfuzunun artırılması istiqamətində ardıcıl və məqsədyönlü iş aparıldı. Ana dilimizin qorunması, inkişaf etdirilməsi, bütün idarə və təşkilatlarda dövlət dili kimi tətbiq edilməsi istiqamətində daha qətiyyətli addımlar atıldı. Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyamızda Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Ulu öndərin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 2001-ci il 18 iyul və “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2003-cü il 2 yanvar tarixli fərmanları dilimizin və dilçiliyimizin inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Həmçinin ümummilli liderin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev dilimizin daha geniş təbliğinə hərtərəfli imkanlar yaratmışdır. Bu gün inkişaf etmiş bir çox dünya dövlətlərində tədrisin Azərbaycan dilində aparıldığı məktəblər açılmış, həmin məktəblər doğma dilimizdə olan dərsliklərlə, metodiki və bədii ədəbiyyatlarla təmin edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” və “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar tarixli sərəncamlarına əsasən latın qrafikalı Azərbaycan əlifbası ilə dərsliklər, elmi əsərlər, lüğətlər və bədii ədəbiyyatlar çap olunaraq ölkə kitabxanalarına paylanılmışdır. Ölkə Prezidentinin 2013-cü il 9 aprel tarixli “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” Sərəncamı Azərbaycan dilinə göstərilən qayğının ifadəsi kimi bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Dövlət proqramında Azərbaycan dili və dilçiliyi ilə yanaşı, həm də tərcümə fəaliyyəti, terminologiyanın inkişafı, internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması məsələləri öz əksini tapmış, televiziya və radiolarda Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuralar yaradılmışdır.

Muxtar respublikamızda da ən ali milli dəyərimiz olan dövlət dilimizin qorunub yaşadılmasına xüsusi diqqət yetirilir, dövlət-dil siyasəti uğurla həyata keçirilir. İstər danışıq, istərsə də yazı dilindən düzgün istifadə olunması, ana dilimizin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi, təbliğ olunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə reallaşdırılan tədbirlər ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Naxçıvan şəhərində ucaldılmış “Ana dili” abidəsi dilimizə ehtiramın ən böyük ifadəsidir.

Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə oxunması zəruri olan kitabların siyahısının təsdiq olunması, dəyərli ədəbi nümunələrin gənclərə tövsiyə edilməsi həm də dilimizin, sözümüzün təbliğinə verilən qiymət kimi dəyərləndirilməlidir. Muxtar respublikada XI əsrdə qələmə alınmış “Qutatqu bilik” mənzum romanının nəşri də böyük mədəni-ictimai əhəmiyyət daşımaqdadır. Bu məqsədyönlü fəaliyyətin nəticəsi olaraq dilimizin tarixinin öyrənilməsi, onun qorunub inkişaf etdirilməsi çərçivəsində Ali Məclis Sədrinin tapşırığı ilə “Dədə Qorqud yurdu Naxçıvan atlası”, “Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası”, “Naxçıvanda “Kitabi-Dədə Qorqud” toponimləri” kitablarının nəşri, eyni zamanda dilimizin qorunub yaşadılması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi məmnunluq doğurur.

Dilimizin qorunması, zənginləşdirilməsi, inkişaf etdirilməsi, hər kəsin vətəndaşlıq borcudur. Hər bir Azərbaycan vətəndaşı öz ana dilini qorumalı, onun mənəvi-siyasi nüfuzunu təkcə ölkə daxilində deyil, bütün dünyada yüksəltməyə çalışmalıdır.

**Əbülfəz QULİYEV**
**AMEA-nın müxbir üzvü**

## Elmi konfrans keçirilib



Naxçıvan Dövlət Universitetində 21 fevral Beynəlxalq Ana Dili Gününə həsr olunmuş elmi konfrans keçirilib. Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ana dilinin hər bir xalqın həyatındakı müstəsna rolundan bəhs edib. Qeyd edilib ki, ölkəmizdə Ana dilimizin hərtərəfli inkişafı, beynəlxalq münasibətlər sisteminə yol tapması mahir natiq, ulu öndər Heydər Əliyevin dilimizin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Dilimizə dövlət qayğısı haqqında məruzəsində filologiya üzrə fəlsəfə doktoru, dosent Qənirə Əsgərova bildirib ki, əsası ümummilli lider tərəfindən qoyulmuş dil siyasətinin bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və müxtəlif vaxtlarda imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”, “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” sərəncamları və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Tədbirdə “Azərbaycan bədii dilinin inkişafı haqqında (Eldar Baxışın yaradıcılığı üzrə)” filologiya üzrə elmlər doktoru, professor Sədaqət Həsənovanın, “Öz dilimdir, şirin dil” mövzusunda filologiya üzrə fəlsəfə doktoru Arzu Abbasovanın da məruzələri dinlənilib.

Sonra mövzu ətrafında diskussiyalar aparılıb. Məlumat verilib ki, Beynəlxalq Ana Dili Günü YUNESKO-nun 1999-cu ildə keçirilən Baş Konfransının 30-cu sessiyasında təsis edilib və 2000-ci il fevralın 21-dən dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq məqsədilə qeyd edilir. Sonda tələbələr ana dilinə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

**Səadət ƏLİYEVA**

# Türk-islam mədəniyyətinin daşıyıcısı, gənclər şəhəri
# Naxçıvan

***Azərbaycanın qədim şəhərlərindən olan Naxçıvan ölkə daxilində virtual səsvermə yolu ilə Gənclər Paytaxtı seçilib. Artıq bir çoxumuza məlumdur ki, bu müsabiqə “Azərbaycan gəncliyi 2016-2020-ci illərdə” Dövlət Proqramına müvafiq olaraq keçirilir və Naxçıvan şəhəri bu il səslərin 30 faizini toplayaraq bu adı qazanıb.***



Qeyd edək ki, son illərdə dünyada informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı və qloballaşma prosesləri gənclərin sosial həyatdakı fəallığına da təsir göstərməkdədir. Bu amillərin təsiri altında ölkələrin qarşılaşdığı problemlərin müzakirəsi üçün BMT Baş katibinin müraciəti ilə 2014-cü ilin oktyabrında Dünya ölkələrinin I Qlobal Forumu keçirilib. Qlobal Forumun Bakıda keçirilməsi ölkəmizdə gənclər siyasəti sahəsində əməli təcrübə və müsbət tendensiyaların əldə edilməsinin təzahürüdür. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına və 2015-ci il 26 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”na uyğun olaraq “Azərbaycan gəncliyi 2016-2020-ci illərdə” Dövlət Proqramı hazırlanıb. Hazırda bu proqramın icrası məqsədilə mühüm tədbirlər həyata keçirilir və ölkəmizin şəhər və rayonlarının səsvermə yolu ilə Gənclər Paytaxtı seçilməsi də bu sahədə görülən işlərin tərkib hissəsidir. Bu layihənin əsasnaməsində qeyd olunur ki, Gənclər Paytaxtının seçilməsi gənclərə diqqətin artırılması, gənclər siyasətinin yeni səviyyədə daha da canlandırılması məqsədi daşıyır. Bir il müddətinə Gənclər Paytaxtı seçilmiş şəhər (rayon) gənclərin ictimai, siyasi, sosial, iqtisadi və mədəni həyatda fəal iştirakını təmin edir, onların intellektual və yaradıcılıq potensialının artırılmasına xidmət edəcək yeni ideya və layihələrin həyata keçirilməsinə dəstək verir.

2018-ci ildə Naxçıvan həm İslam Mədəniyyətinin Paytaxtı, həm də ölkəmizin Gənclər Paytaxtı kimi iki məsuliyyətli təmsilçiliyi öz üzərinə götürüb. Status etibarilə birinci tədbir beynəlxalq əhəmiyyətli, ikinci tədbir isə ölkə əhəmiyyətli hesab olunur. Ancaq hər iki layihənin muxtar respublikamız, eləcə də onun paytaxt şəhəri üçün uğurlu olacağı şübhəsizdir. Naxçıvan şəhərinin bu il üçün İslam Mədəniyyətinin Paytaxtı olması haqqında indiyədək çox danışılıb, əhəmiyyətindən kifayət qədər bəhs edilib. Bu qədim Azərbaycan şəhərinin Gənclər Paytaxtı seçilməsi də Naxçıvanın nüfuzu və bu sahədə əldə etdiyi uğurlu nəticənin təzahürüdür.

Təbii ki, Naxçıvan şəhərinin Gənclər Paytaxtı seçilməsi il ərzində muxtar respublika gənclərinin müxtəlif sahələr üzrə fəaliyyətini əks etdirən tədbirlərlə müşayiət olunacaq. Ancaq bu tədbirlərin mahiyyətində əsas hədəf gənclər olsa da, düşünürük ki, gənclərlə bağlı iş yalnız Gənclər və İdman Nazirliyinin və gənclərlə iş üzrə digər təşkilatların bu istiqamətdəki fəaliyyəti ilə məhdudlaşmamalıdır. Çünki gənclərlə bağlı iş cəmiyyətin gələcək perspektivini müəyyənləşdirən bir istiqamət olduğundan burada hər kəsin üzərinə məsuliyyət düşür.

Məlumdur ki, bu gün muxtar respublikamızda gənclərə hərtərəfli dövlət qayğısı göstərilir, onlar müxtəlif dövlət qurumlarında təmsil olunurlar. Gənclərin üzərinə düşən ən böyük vəzifə isə vətəndaşı olduğu ölkəni, doğulub boya-başa çatdığı bölgəni layiqincə təmsil etmək, onu olduğu kimi tanıtmaqdır. Bu gün elə bir dövrdə yaşayırıq ki, həyata keçirdiyimiz istənilən tədbir düzgün təbliğata çevrilməlidir. İndi dünyanın hansı ölkəsində mühüm bir tədbir keçirilirsə, bu, paralel olaraq həmin ölkənin və ya şəhərin tanınmasına və yaxud təbliğinə çevrilir. Yəni insanlar keçirilən tədbirin mahiyyəti ilə yanaşı, həmin ölkə və yaxud bölgə ilə də istər-istəməz tanış olurlar. Burada diqqət edilməli məqamlar isə bundan ibarətdir ki, müasir təbliğat vasitələri bəsitliyi sevmir, bir bölgənin tanıdılması təkcə lokal miqyasda deyil, həm də qlobal maraqlar baxımından dəyərləndirilməli və həyata keçirilməlidir.

Bu gün dünyada gözəl təbiət mənzərələri – dağları, çay və dənizləri, tarixi tikililəri olan çox ölkələr vardır. Ancaq biz onlardan yalnız müəyyən statusa malik olanları və ya haqqında geniş təbliğat halqası qurulanları yaxşı tanıyırıq. Məsələn, bəzən Avropa şəhərlərində yaşı 150-200-dək olan restoranların indiyədək fəaliyyət göstərdiyini eşidəndə təəccüblənirik. Ancaq avropalıların Naxçıvanda yaşı minilliklərlə ölçülən və indi də davam etdirilən duz hasilatı haqqında məlumatları, yəqin ki, yoxdur. Dünya mediasında bəzən rast gəlirik ki, filan ölkənin filan bölgəsində avtomobillərin hərəkəti son 50 ildə məhdudlaşdırılıb, səbəb odur ki, həmin ərazi milli qoruq olaraq qorunur. Lakin dünyada çox nadir hallarda rast gəlinər ki, bir bölgənin ümumi ərazisinin 27 faizi xüsusi mühafizə olunan təbiət əraziləri olsun. Bu siyahıya dünyanın ən qədim yaşayış məskənlərindən olan Gəmiqaya abidəsini, Ordubad rayonu ərazisində ilin dörd fəslini eyni tabloda “təqdim edən” Göygöl və adını sadalamadığımız onlarla obyekti göstərmək olar, hansı ki bunları Naxçıvandan başqa, digər yerlərdə görmək mümkün deyil. Bütün bunları düzgün təbliğ etmədikcə Naxçıvanı yetərincə tanıda bilməyəcəyik. Bu misalları çəkməkdə məqsədimiz odur ki, Naxçıvanın bu il üçün Gənclər Paytaxtı seçilməsi gənclərimiz üçün mühüm təbliğat vasitəsidir. Bu mənada, gənclərə hər bir dövlət qurumu, ictimai birliklər, sahibkarlar, bir sözlə, hamı dəstək olmalı, Naxçıvanın bütün sahələrdə nümunəvi olmağını ön plana çıxarmalıyıq. Bu il şəhərimizdə reklamın “danışan dili” gənclər olmalıdır. Xüsusilə yerli məhsul istehsal edən sahibkarlar gənclərə yönəlik müxtəlif kampaniyalar təşkil edə, öz məhsullarının tanıdılmasında gənclərdən yararlana bilərlər. Və yaxud müvafiq qurumlar müxtəlif sosial layihələr həyata keçirərək Naxçıvanın ekoloji təmizliyini, şəhərin tarix və mədəniyyətini, turistlər üçün təhlükəsiz bir ünvan olduğunu gəncliyin siması ilə təqdim edə bilərlər. Eyni zamanda bu layihələri vətənpərvərlik, milli köklə bağlılıq, böyük-kiçiyə hörmət, təhsilə bağlılıq, idmana sevgi və sair istiqamətlər üzrə də etmək mümkündür. Əsas odur ki, gənclik Naxçıvanın Gənclər Paytaxtı kimi gənc və dinamik üzünü göstərə bilsin. İnanırıq ki, mövcud potensial qədim və müasir şəhəri bu cür nümunəvi şəkildə tanıtmağa və təqdim etməyə imkan verir.

**✍ Səbuhi HƏSƏNOV**

## Azərbaycan və Koreya dillərinin qarşılıqlı öyrənilməsi üçün geniş imkanlar vardır

***Hər bir insanın təkamülündə, onun zənginləşməsində, təhsil almasında, dünyagörüşünün genişlənməsində, ünsiyyət mədəniyyətinin formalaşmasında dil mühüm rol oynayır. Azərbaycan dili xalqımızın çoxəsrlik tarixinin, mədəniyyətinin, adət-ənənələrinin ifadə vasitəsidir. Ana dilimizin ifadə zənginliyi, axıcılığı və sadəliyi, səlis ahəngi onu dünyada ən şirin dillərdən biri kimi tanıtmışdır. Biz ana dilimizi qoruyub saxlamaqla qlobal dünyaya inteqrasiya edirik.***



Dünyaya inteqrasiyada, ölkəmizin dünya dövlətləri içərisində tanınmasında ali məktəblərdə xarici dillərin tədrisi də mühüm rol oynayır.

Dünya dillərinin tədrisində Naxçıvan Dövlət Universiteti də öz töhfəsini verir. Universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində alman, ingilis, fransız, rus, ərəb, fars dilləri tədris edilir. Bu təhsil ocağı çox sürətlə inkişaf edir, xarici əlaqələri günü-gündən genişlənir. Universitet dünyanın aparıcı ali məktəbləri ilə çox geniş işgüzar əlaqələr yaradıb. O nəinki regionda, hətta dünya miqyasında tanınmış ali məktəblərin birinə çevrilib. Naxçıvan Dövlət Universitetinin bir çox universitetlərlə, o cümlədən Cənubi Koreyanın Kimçonq və Busan Kyumqsunq universitetləri ilə əməkdaşlığı davam edir. Universitetdə digər dillərlə yanaşı, Koreya dili də tədris olunur.

2011-ci il noyabrın 11-dən Naxçıvan Dövlət Universitetində Cənubi Koreya Mərkəzi fəaliyyət göstərir. Mərkəzin rəhbəri Lee Jin mərkəz və ana dilimizə olan münasibəti haqqında bizi məlumatlandırdı. O qeyd etdi ki, mərkəzdə Koreyanın dövlət atributları, milli musiqi alətləri, eyni zamanda ölkənin tarixini, milli mədəniyyətini əks etdirən elmi-siyasi ədəbiyyatlar, elektron məlumat vasitələri toplanıb. Mərkəz qabaqcıl texnologiya və zəngin tədris materialları, Koreya dilində ensiklopediya, lüğət və digər məlumat nəşrləri ilə təchiz edilib. Cənubi Koreya vətəndaşı Lee Jin həm də universitetdə Azərbaycan dili və ədəbiyyat müəllimliyi üzrə magistraturanın ikinci kursunda təhsil alır. O, mərkəzdə kursa gələn tələbələrə Koreya dilində dərslər keçir. Azərbaycan dilini sadə və şirin dil hesab edən Lee bildirir ki, Azərbaycan və Koreya dillərinin Altay dil qrupuna məxsusluğu, Koreya dilində cümlə quruluşunun Azərbaycan dili ilə eyniliyi hər iki dilin oxşar xüsusiyyətləridir. Buna görə də kursda iştirak edən tələbələr Koreya dilini asanlıqla mənimsəyirlər. Həmçinin o bildirdi ki, gələcəkdə Azərbaycan-Koreya dillərində lüğət də daxil olmaqla, kitab hazırlamaq fikrindədir.

Mərkəzin digər əməkdaşı, Cənubi Koreya vətəndaşı, Koreya dilini tədris edən müəllim Seo Sumi isə bildirdi ki, 1 oktyabr 2012-ci il tarixdən universitetin Cənubi Koreya Mərkəzində Koreya dili üzrə hazırlıq kursları ödənişsiz olaraq fəaliyyət göstərir. Mərkəzdə Koreya dilini həftədə 2 dəfə olmaqla tədris edirik, – deyən müsahibim bu dili öyrənməkdə xüsusi fərqlənənlərin universitet tərəfindən Cənubi Koreya universitetlərinə göndərildiyini də söylədi. Hazırda 40-a yaxın tələbənin Koreya dilini, ədəbiyyatını, tarixini, mədəniyyətini öyrənməsi ölkəmizi tanıtmaq baxımından böyük əhəmiyyətə malikdir. Biz də tələbələrdən Azərbaycan tarixi, dili, mədəniyyəti haqqında çoxlu məlumatlar öyrənirik. Fikrimcə, Azərbaycan dili çox zəngin dildir. Hər iki dildə bəzi sözlər, hətta şəkilçilər oxşarlıq təşkil etdiyi üçün ana dilinizi mənimsəmək çox çətin olmadı, – deyə müsahibim əlavə etdi.

Hazırlıq kurslarına universitetin I-IV kurs tələbələri Aynur Cəfərova, Turac Quliyeva, Kamil Hüseynli, Lalə Rzayeva və digərləri böyük həvəs göstərirlər. Xarici tələbələrlə söhbət zamanı isə onlarda Azərbaycan dilini öyrənməyə böyük maraq olduğunu gördük.

Universitetin coğrafiya müəllimliyi üzrə magistrantı Kim Dosung Azərbaycan dili ilə Koreya dilinin müqayisə edərək bildirdi ki, Azərbaycan dili digər dillərdən özünəməxsusluğu, sadəliyi, şirinliyi ilə fərqlənir. Bu dil Koreya dilinə yaxın olduğu üçün onu öyrənmək çox asandır. Azərbaycan dili ilə yanaşı, Azərbaycan xalqı da çox mehriban və qonaqpərvərdir. Burada qalmaq və təhsilimi davam etdirmək fikrindəyəm.

Qeyd etmək lazımdır ki, qloballaşma prosesinin sürətlə getdiyi dövrdə Azərbaycanın beynəlxalq təhsil məkanına inteqrasiya sahəsindəki uğurlu siyasətinin nəticəsi olaraq azərbaycanlı gənclərin dünyanın qabaqcıl ölkələrində təhsil almaq imkanı başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır. Bütün bunlar dil vasitəsilə ana dilimizin dünyada tanıdılmasına, sevilməsinə, dünya dilləri içərisində seçilməsinə şərait yaradır. Bu gün mənəvi sərvətimiz, milli varlığımız olan ana dilimizin saflığını qorumaq və bizdən sonrakı nəsillərə ötürmək hər birimizin vətəndaşlıq borcudur.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Ali təhsil ocağının əməkdaşları beynəlxalq sammitdə iştirak ediblər




“Naxçıvan” Universitetinin beynəlxalq əlaqələri təhsilin keyfiyyətinin yüksəldilməsinə, onun strukturunun, idarəetmə metodlarının, müəllimlərin pedaqoji ustalığının, tədris proqramlarının məzmununun, texniki təchizatının, təhsil prosesinin beynəlxalq standartlara uyğun şəkildə qurulmasına və inkişafına yönəlmişdir. Ali təhsil ocağı yarandığı gündən xarici əlaqələrin qurulmasına, əməkdaşlığa daim önəm verərək bu istiqamətdə ardıcıl fəaliyyət göstərir.

Keçirilən tədbirlərin davamı olaraq “Naxçıvan” Universitetinin tədris işləri üzrə prorektoru Hüseyn Bağırsoylu və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli universitetin üzvü olduğu Avrasiya Universitetlər Birliyinin Türkiyənin İstanbul şəhərində təşkil etdiyi “EURİE – 2018” sammitində iştirak ediblər. Samit çərçivəsində təhsil sərgisi təşkil edilib, sərgidə universitetlərin bir-biri ilə qarşılıqlı əlaqə qurmalarına şərait yaradılıb. Sərgiyə 100-ə yaxın ölkənin 200-ə yaxın universiteti qatılıb. Azərbaycan Dövlət İqtisad, Bakı Dövlət, Xəzər, Naxçıvan Dövlət universitetlərinin və digər ali təhsil ocaqlarının nümayəndələri digər sərgi iştirakçıları ilə ünsiyyət quraraq qəbul prosesi, təhsilhaqqı və digər məsələlərlə bağlı onları maraqlandıran suallara cavab almaq imkanı əldə etmişlər.

Səfər çərçivəsində Avrasiya Universitetlər Birliyinin rəhbəri, İstanbul Aydın Universitetinin təsisçisi Mustafa Aydınla “Naxçıvan” Universitetinin tədris işləri üzrə prorektoru Hüseyn Bağırsoylunun görüşü olub. Görüş zamanı hər iki universitet arasında ikili diplom məsələsi müzakirə olunmuş və ilkin, başlanğıc mərhələnin təməli qoyulmuşdur. Onu da bildirək ki, bundan başqa, Hüseyn Bağırsoylu və Rəcəb Cəfərli tədbir müddətində Malayziyanın Malayziya, Türkiyənin İstanbul Gedik universitetləri ilə ilkin razılaşmalar əldə etmişlər. Həmçinin İran İslam Respublikasının Xorasan şəhərində yerləşən Birjnad Universiteti ilə tələbə və müəllim mübadiləsi və elmi əməkdaşlıq mövzusunda ikili razılaşma imzalanmış, eləcə də Türkiyənin Pamukkale Universiteti ilə turizm ixtisası üzrə ikili diplomun verilməsi barədə razılıqlar əldə edilmişdir.

Sərgi çərçivəsində universitetin stendləri, tanıtım jurnalları, loqoları sərgi iştirakçılarına paylanılmışdır.

**Nuray ƏSGƏROVA**

## Akademik İsmayıl Hacıyevin məqaləsi ispandilli “İRS-Herencia” jurnalında çap olunub

***AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin məqaləsi ispan dilində çap olunan “İRS-Herencia” beynəlxalq jurnalının son nömrəsində dərc olunub.***







“Əlincəqala-Azərbaycanın əyilməzlik simvolu” adlı məqalədə Azərbaycan dövlətçiliyi tarixində özünəməxsus yeri olan Əlincəqala barədə məlumat verilir, Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın fotoşəkilləri yer alıb.

Məqalədə qeyd olunur ki, Əlincəqala Naxçıvan şəhərindən 30 kilometr şərqdə, Culfa rayonunun Xanagah kəndi ərazisində, Əlincə çayının sağ sahilində, 1811 metr hündürlüyə malik olan sıldırım Əlincə dağının üzərində yerləşir. Qala bu ərazidə yaşamış Əlincək tayfa birliyi tərəfindən eramızdan əvvəl tikilmiş, eramızın V əsrinə qədər bərpa edilmişdir. Əlincək qədim türk boylarından biridir. Əlincə adı isə həmin tayfa birliyinin adından yaranmışdır.

Bildirilir ki, Əlincəqala ən qədim müdafiə qalası və yaşayış yeri olmuşdur. Bu qalanın tarixi Azərbaycan xalqının azadlıq və istiqlaliyyət uğrunda yadelli işğalçılara qarşı apardığı mübarizə tarixi ilə sıx bağlıdır. Əlincəqala haqqında orta əsr mənbələrində çoxlu məlumatlar vardır. Bu mənbələr içərisində Əlincəqalanın adının çəkildiyi elmə məlum olan ən qədim qaynaq “Kitabi-Dədə Qorqud” dastanıdır. Əlincəqalanın adına dastanın “Uşun Qoca oğlu Səgrək boyunu bəyan edər” boyunda rast gəlinir.

Məqalədə diqqətə çatdırılır ki, Azərbaycanın əyilməzlik simvolu, xalqımızın qürur mənbəyi olan Əlincəqala dövlət müstəqilliyimizin bərpasından sonra ölkəmizdəki digər maddi-mədəniyyət abidələri kimi yüksək dövlət qayğısı ilə əhatə olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr tarixdə imzaladığı Sərəncama əsasən muxtar respublika ərazisindəki abidələr qeydə alınıb pasportlaşdırılarkən Əlincəqala haqqında da məlumatlar toplanılıb. Əlincəqala Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 21 noyabr tarixli qərarı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikası ərazisindəki daşınmaz tarix və mədəniyyət abidələrinin dünya, ölkə və yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri”nin siyahısına dünya əhəmiyyətli abidə kimi daxil edilib.

Məqalədə qeyd olunur ki, Ali Məclis Sədrinin 2014-cü il 11 fevral tarixdə imzaladığı “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” Sərəncama əsasən 2014-cü ilin aprel ayında Əlincəqalada bərpa işlərinə başlanılıb. Qalanın zirvəsinə yol çəkilib, Əlincəqaladakı qədim yaşayış yerləri, təsərrüfat binaları, qala divarları, mühafizə yerləri, səngər və bürclər, su hövzələri tədqiq edilib, onların forması müəyyənləşdirilib. Qala tarixi görkəmi saxlanılaraq bərpa edilib. Həmçinin Əlincə dağının qərb ətəyində, qalaya qalxan yolun kənarında “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyi yaradılıb.

Əlincəqalada bərpa-abadlıq işləri başa çatdırılıb və 2016-cı il iyunun 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə qalanın açılış mərasimi olub.

Akademik İsmayıl Hacıyevin “Əlincəqala-Azərbaycanın əyilməzlik simvolu” adlı məqaləsi ispandilli ictimaiyyətin Naxçıvanın dünya əhəmiyyətli abidəsinin tarixi və orada aparılan bərpa işləri ilə tanış edilməsi baxımından əhəmiyyətli mənbədir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Fərdi qəza sığortası hər bir vətəndaş üçün vacibdir

***Sağlamlığın qorunması hər kəsin əsas qayğılarındandır. Hamı istəyir ki, sağlam və firavan yaşasın, qəzalardan uzaq olsun. Ancaq bəzən elə gözlənilməz hadisələr baş verir ki, bunların nəticəsində şəxsin sağlamlığına ciddi zərər vuran xəsarətlər qaçılmaz olur. Bu da, öz növbəsində, zərərçəkmiş insana və onun ailəsinə kifayət qədər yüksək məbləğdə maddi zərər vurur. Bu baxımdan baş vermiş qəza hallarında xəsarət almış insanların sağalması üçün ehtiyac olan maddi məsrəflərin təmin olunmasında fərdi qəza sığortasının mühüm əhəmiyyəti vardır. Bu, eyni zamanda vətəndaşların sosial müdafiəsi də deməkdir.***

Fərdi qəza sığortası könüllü sığortadır. Ancaq bununla yanaşı, o, müasir dünyada geniş yayılıb. İnsanların fəallığının artması, baş verə biləcək hər cür bədbəxt hadisələrin ehtimalının çoxalması, sağlamlığa dəyər verilməsi bu sığorta növünün populyarlığını artırır. Bu isə tərəflərin qarşılıqlı razılaşması yolu ilə müəyyən olunmuş qaydalar əsasında aparılır.

Fərdi qəza sığortasının bir sıra üstünlükləri də vardır. Belə ki, istehsalatda bədbəxt hadisələrdən icbari sığorta yolu ilə sığortalanan şəxslərə yalnız iş vaxtı baş verə biləcək hadisələrdən təminat verilirsə, fərdi qəza sığortası olan insana onun harada olmasından və günün hansı saatından asılı olmayaraq baş vermiş gözlənilməz, bədbəxt hadisələrdən maddi təminat verilir. Bu isə hər bir insanın həyatı üçün vacib şərtdir. Çünki sığorta agentliyi tərəfindən həyata keçirilən fərdi qəza sığortası bədbəxt hadisələr nəticəsində dəymiş xəsarətlərdən yaranan maddi zərərlərin əvəzini ödəməklə insanlara köməklik edir.

İnsan həyatında sağlamlığın və əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən qəfil, gözlənilməz bədbəxt hadisələrə həmişə, hər yerdə rast gəlmə ehtimalı vardır. Sosial fəaliyyətlərin getdikcə daha çox artması, iqtisadi və mədəni həyatdakı sürətli dəyişikliklər, uzaq səfərlərə yollanma meyilləri belə ehtimalları daha da artırır. Vətəndaşlar fərdi qəza sığortası ilə sığorta olunduqda belə hadisələr baş verdikdə sığortaçı tərəfindən verilən sığorta ödənişlərini istifadə etməklə dəymiş zərəri qısa müddətdə bərpa edə bilərlər. Bu zərərlərin isə fiziki, kimyəvi, texniki xarakterli təsadüfi hadisələrdən baş verməsi mümkündür. Belə ki, insanın cansağlığının və əmək qabiliyyətinin itirilməsi ilə müşayiət olunan qəfil yanğın, partlayış, donma, suda boğulma, elektrik cərəyanı, ildırım, günvurma, vəhşi heyvanların hücumu, tənəffüs yollarına yad əşyanın düşməsi, zəhərli bitkilərdən kəskin zəhərlənmə, eləcə də maşın, mexanizm və alətlərdən istifadə zamanı ona dəymiş zərərə görə sığortalı vətəndaşın özü və ya ailəsi sığorta müqaviləsində göstərilmiş məbləğdə sığorta ödənişi ilə təmin olunur.

Fərdi qəza sığortası tərəflər arasında razılaşdırılmaqla, könüllü sığorta müqaviləsi bağlamaqla həyata keçirilir. Bu müqaviləyə əsasən sığortalı şəxsin ödədiyi razılaşdırılmış sığortahaqqı müqabilində sığorta hadisəsi baş verdiyi zaman həmin müqavilədə göstərilən sığorta məbləğinin sığortaçı tərəfindən faydalanan şəxsə, yəni sığortaolunana və ya sığortaolunan bədbəxt hadisə nəticəsində vəfat etdiyi hallarda isə övladlarına verilməsi nəzərdə tutulur.

Fərdi qəza sığorta növü üzrə müqavilə bağlanarkən sığortalı şəxsin ödədiyi sığortahaqqı razılaşdırılmış sığorta məbləğinə və sığortaolunanın peşəsi və məşğuliyyəti nəzərə alınmaqla müəyyənləşdirilən tarif dərəcəsinin sığorta məbləğinə nisbətdə hesablanmış pul məbləğidir. Bu məbləğ fərdi qəza sığortası üzrə tarif dərəcəsi risklərin səviyyəsindən asılı olaraq 0,4 faizdən 2 faizədək həcmdə müəyyənləşdirilir. Məsələn, aşağı risk dərəcəsində min manat dəyərində sığorta məbləği üçün 0,5 faiz tarif dərəcəsi ilə 5 manat sığortahaqqı ödəməklə müqavilə bağlamaq mümkündür. Belə ki, beş min manatlıq sığorta məbləği üçün isə müqavilə bağlandıqda 0,5 faiz tarif dərəcəsi ilə 25 manat sığortahaqqı ödənilməlidir. Nisbətən yüksək risk səviyyəsi mövcud olduqda isə min manatlıq sığorta məbləği üçün 1 faiz tarif dərəcəsi ilə 10 manat sığortahaqqı, beş min manatlıq sığorta məbləği üçün isə 50 manat sığortahaqqı ödənilməklə müqavilə bağlanır. Fərdi qəza sığortası üzrə sığortahaqqı nağd və nəqdiyyəsiz qaydada ödənilə bilər.

Göründüyü kimi, fərdi qəza sığortası çox mühüm maddi zəmanətlər vəd edir. İnsanların gözlənilməz qəfil qəza hadisələrinə rast gəlmə ehtimalı çox olsa da, onlardan vaxtında sığortalanmaqla yaranmış çıxılmaz vəziyyətdən, maddi zərərlərdən xilas olmaq mümkündür. Ona görə də fərdi qəza sığortası hər bir vətəndaş üçün vacib tələbatdır.

✍ **Əli CABBAROV**

***Övladlarının sağlam qidalanması valideynləri bir sıra hallarda narahat edir. Bəzən onlar uşaqların dəcəlliyindən çox iştahasızlıqlarından şikayətlənirlər. Bəs uşaqların sağlam qidalanmasında daha çox nəyə diqqət etmək lazımdır? Onlar üçün faydalı olan qidalar hansılardır? Yaranan iştahasızlığı aradan qaldırmaq üçün nə etmək olar? Sadalanan suallara cavab tapmaq üçün Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasına üz tutduq. Xəstəxananın baş pediatrı Səkinə Tarverdiyeva ilə bu barədə söhbət etdik:***

*Həkim məsləhəti*

# Uşaqlarınızın sağlam qidalandığına əminsinizmi?

***– Bildiyimiz kimi yeni doğulmuş körpə uşaqlar, əsasən, ya ana südü, ya da digər quru südlərlə qidalanır. Bu qidaların bir-birindən fərqi nədir?***

– Ana südünün tərkibində yeni doğulmuş uşaqlarda maddələr mübadiləsini sürətləndirən antigen var. Bu süd vasitəsilə uşaq çoxlu miqdarda immun cisimciklər və fermentlər alır. Ana südü qidalandırıcı olub, tərkibinə görə uşağın fərdi tələbatını ödəyir.

Bəzi səbəblərə görə ana südü qəbul etməyən uşaqlara müxtəlif quru südlər verilir. 1 yaşına qədər çağaya inək südü vermək düzgün deyil. Buna səbəb onun tərkibindəki yağın faizinin yüksək olmasıdır. Bəzən o, körpələrdə allergiyanın yaranmasına səbəb ola bilər.

Ana südü körpənin gələcək inkişafında mühüm rol oynayır. Onun əsas bioloji üstünlüyü tərkibində anticisimlərin və hormonların olmasıdır. Beləliklə, anticisimlər uşağın ilk aylarında bir sıra uşaq infeksiyalarına qarşı immunitet yaradır. Hormonlar isə uşağın boy artımı və inkişafını stimullaşdırır, eyni zamanda zehni inkişaf etdirir, uşaqların çəki almasında, ətraf mühitə uyğunlaşmasında böyük əhəmiyyət daşıyır.

Ana südünü 2 yaşına qədər tövsiyə edirik. Lakin müxtəlif səbəblərdən bu mümkün olmazsa, 6 ayına kimi verilməsi vacibdir. Çünki bu zamanlarda uşağın dayaq-hərəkət sistemi inkişaf edir ki, ana südünün tərkibi onun hərəkətində, yeriməyində böyük rol oynayır.

Ana südü ilə qidalanan və qidalanmayan uşaqları müqayisə etsək, bir çox fərqliliklərlə rastlaşarıq. Bu fərqliliklər sonrakı yaşlarda özünü daha çox büruzə verir. Belə ki, ana südü uşağın xəstəliklərə tez yoluxmasının qarşısını alır. Ananın bədənində olan bütün vitaminlər, mineral maddələr onun südü vasitəsilə uşağa keçməklə bir çox xəstəliklərin qarşısını alır, yəni immuniteti gücləndirir.

***– Bəzi analar qrip və ya soyuqdəymə zamanı uşağa süd verməkdən imtina edir. Bu doğru addımdırmı?***

– Xeyr. Bu zaman bəzi analar məlumatsızlıqdan, bəziləri də ehtiyat edərək uşağa süd verməkdən çəkinirlər. Lakin belə halda həkimə müraciət edərək müəyyən müayinə və müalicələr tətbiq olunmaqla uşağa süd verməyə davam edə bilərlər. Amma müdaxilə etmədən, qarşısını almadan süd verməyə davam etmək də doğru deyil. Hər halda həkimə müraciət vacibdir. Analara məsləhətim odur ki, belə hallarla rastlaşdıqları zaman həkimə mümkün qədər tez müraciət etsinlər.

***– Altı ayından sonra uşaqların qidalanmasında nələrə diqqət etmək lazımdır?***

– Bu müddətdən sonra ana südü saxlanmaq şərtilə uşağa əlavə qidalar verilməlidir. Heç olmazsa, gündə iki dəfə olmaqla, ana südü, əlavə olaraq meyvə şirələri, pürelər də verilir. Lakin bu zaman diqqətli olmaq lazımdır. Əvvəlcə çox az miqdarda verərək uşağın həmin qidaya allergiyasının olub-olmadığını yoxlamalıyıq. Meyvələrdən ilk olaraq alma tövsiyə edilir. Həm tərkibində dəmir olduğundan, əgər uşaqda qanazlığı varsa, onu aradan qaldırır, həm də digər meyvələrlə müqayisədə alma allergiya hallarına ən az rast gəlinən meyvədir. Portağal, çiyələk isə bir yaşına kimi qəti şəkildə uşaqlara verilməməlidir.

Bundan əlavə, əvvəldə də qeyd etdiyimiz kimi uşağa inək südü vermək olmaz. 6 ayından sonra yumurtanın sarısı ilə qidalandırmaq lazımdır.

Bildiyimiz kimi, uşağın ilk ayındakı hərəkəti ilə 6 aydan sonrakı hərəkətini müqayisə etmək olmaz. Bu aylarda uşaqlar iməkləməyə başlayır, çox hərəkətdə olurlar. Bu da o deməkdir ki, onların daha çox enerjiyə, yaxşı qidalanmaya ehtiyacları var. Bunun üçün onların vitaminli qidalar qəbul etməsi vacibdir. 8-9 aydan sonra pürelər, tərəvəz və toyuq şorbaları hazırlayıb uşağa yedizdirmək məsləhət görülür. Uşaqlar üçün şorbalar xüsusi qaydayla hazırlanmalıdır. Bəzi valideynlər böyüklər üçün hazırladıqları şorbaları uşağa da yedizdirirlər. Bu, olduqca, yanlışdır. Onların yeməyi yağsız, duzsuz və buxarda bişirilməli, yeməyə şəkər və duz toz halında qatılmamalıdır. Onlar suda həll olunmalı, suya qarışmış şəkildə azca əlavə olunmalıdır.

Uşağa hər dəfə eyni qidalar yedizdirmək olmaz. Çünki uşaq həm müxtəlif vitaminlər almalıdır, həm də eyni qidaları yemək ona xoş olmayacaq. Azyaşlı uşaqları mümkün qədər qızartmalardan uzaq tutmaq lazımdır. Axşam yüngül yeməklər və yatana yaxın ana südü qəbul etməyi daha yaxşı olar. 1 yaşını tamamlamış uşaqlara əgər allergiyası yoxdursa, inək, keçi südləri də verilə bilər.

***– Məktəbyaşlı uşaqların qidalanması haqqında nə deyə bilərsiniz?***

– Onlarda ilk olaraq mövsümi qidalanmaya diqqət etmək lazımdır. Mövsümi xəstəliklərin rast gəlindiyi fəsil dəyişiklikləri zamanı onlar bol vitaminli qidalara yönəldilməlidirlər.

***– Analar, adətən, uşaqda sancılara səbəb olacağını iddia edərək onların çox su içməsinə icazə vermirlər. Sizcə, bu cür narahatlığa əsas varmı?***

– Su insan orqanizmi üçün çox faydalıdır. O, uşaqlarda immuniteti yüksəldir, eyni zamanda mədənin fəaliyyətini yaxşılaşdırır. Hətta istiliyi olan uşaqlara su içirmək məsləhət görülür. Suyu qəbul edərkən onun təmizliyinə fikir vermək lazımdır. Məsələn, ağzıaçıq şəkildə günlərlə saxlanılan su artıq faydalı yox, zərərli hesab olunur. Gün ərzində havada olan bütün mikroblar həmin suya çökür.

İndi isə keçək su qəbulunun qrafikinə. Əgər körpə uşaq ana südü qəbul edirsə və su tələb etmirsə, verildiyi zaman içməkdən imtina edirsə, içməyə bilər. Yəni burada qorxulu heç nə yoxdur. Çünki ana südünün tərkibində ona lazımlı olan hər şey var. Körpələrdə suya tələbatın olub-olmaması dəridə olan quruluqla təyin olunur. Su qəbul edən körpələrə isə valideynlər mütləq şəkərsiz su verməlidirlər. Ümumiyyətlə, yeni doğulmuşlara çay verilməsi doğru deyil. Su daha uyğundur.

Balacalara qaynadılıb soyudulmuş su verilməlidir. Bu, onların həm həzm sistemi, həm də immuniteti üçün olduqca faydalıdır. Suyu yeməkdən bir qədər əvvəl, yaxud da sonra qəbul etmələri tövsiyə olunur. Yemək əsnasında su içən uşaq toxluq hissi duyur və yeməyindən imtina edir. Bunun üçün yeməklə su qəbulu arasında bir qədər zaman fərqi olmalıdır.

***– Uşaqlar, eyni zamanda biz böyüklər də ziyanlı olduğunu bildiyimiz halda sevdiyimiz bəzi qidalardan istifadə edirik. Xüsusən uşaqları onlardan uzaq tutmaq çətindir. Bu işdə valideynlərə məsləhətləriniz.***

– Əlavə qidalardan uşaqları mümkün qədər uzaq tutmaq lazımdır, 10 yaşına qədər uşaqlara isə həmin qidalar qəti şəkildə olmaz. Biz böyüklərin orqanizmi ziyanlı qidalarla, müəyyən mənada, mübarizə apara bilir, lakin uşaqlarda bu belə deyil. Həmin qidalar onlarda zəhərlənmə və qəbizlik hallarına gətirib çıxara bilər. Yaxşı olar ki, uşaqlara ev şəraitində hazırlanmış sıyıqlar, şirniyyatlar verilsin.

***– İndi isə keçək valideynləri ən çox narahat edən məsələyə – iştahasızlıq hallarına. Bu problemi aradan qaldırmaq üçün valideynlər nə edə bilərlər?***

– Altı aya kimi uşaqların iştahasızlıqlarına çox az rast gəlinir. Digər yaşlarda isə bəli, daha çox qarşılaşırıq. Bunun üçün C vitamini ilə zəngin meyvələr yedizdirilməlidir. C vitamini həm iştahanı artırır, həm də immuniteti gücləndirir.

Valideynlər onu da diqqətdə saxlamalıdırlar ki, uşağa zorla yemək yedirmək olmaz. Əgər uşaq xörəyi yemək istəmirsə, o zaman xörəyi ət, kəsmik, alma və giləmeyvə ilə qarışdırıb vermək, yaxud da oyunlar oynayaraq müxtəlif yollarla onda yeməyə maraq oyatmaq lazımdır, nəinki qorxudaraq. Uşağın sinir sistemini pozub ondan normal qidalanma gözləmək olmaz.

Üç yaşından böyük uşaqları isə qətiyyən məcbur etmək olmaz. Bəziləri uşağı normadan artıq yedirməyə çalışırlar. Bu isə onun mədəsinə, bağırsaqlarına əlavə yükdür. Az-az, günün müəyyən hissəsinə bölərək hər qidanı müxtəlif saatlarda yedirmək daha yaxşı olar. Bu zaman həm uşaq iştahlı olacaq, həm də orqanizmi çox yüklənməyəcək. Xüsusilə də axşam saatlarında uşağı çox yeməyə məcbur etmək olmaz. Bu, onlarda mədə ağrısı, köp hallarına gətirib çıxara bilər.

*Əziz valideynlər, sizi maraqlandıran, narahat edən məsələləri Səkinə həkim mümkün qədər geniş şəkildə izah etdi. Çalışın ki, uşaqlarınız onlar üçün faydalı qidanı sevsinlər. Belə olduqda sizin də işiniz xeyli asanlaşacaq. Unutmayaq, müəyyən bir yaşa qədər onların qidalanmalarına siz nəzarət edəcəksiniz, sonrakı illərdə nə yeyəcəklərinə özləri sərbəst şəkildə qərar verəcəklər. Buna görə də onları erkən yaşlarından sağlam qidalanmaya alışdırmaq lazımdır.*

**Fatma BABAYEVA**

# Ustad dərsi keçilib

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası istiqamətində işlər davam etdirilir. Bu çərçivədə fevralın 20-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın Rəssamlar Birliyi tərəfindən Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlar üçün artterapiya kurslarında ustad dərsi keçilib.

Ustad dərsini Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva keçib. Dərsin keçilməsində məqsəd sağlamlıq imkanları məhdud uşaqlara rəssamlıq sənətini sevdirmək, onların yaradıcılıq potensiallarını artırmaq və sosial reabilitasiyaya nail olmaqdır.

# İntellektual oyunlar olimpiadasının şəhər mərhələsinə yekun vurulub



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş yeniyetmələr arasında intellektual oyunlar olimpiadasının Naxçıvan şəhər birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri yanında Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin və “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən olimpiadanın məqsədi yeniyetmələri intellektual fəaliyyətə cəlb etmək, bu sahədə bilik və bacarıqlarını artırmaq, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onların asudə vaxtlarını səmərəli təşkil etməkdir.

Yarışdan öncə çıxış edən Gənclər və İdman Nazirliyinin şöbə müdiri Tahir Məmmədli, Gənclər Fondunun əməkdaşı Ceyhun Xəlilli və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov oyunun mahiyyəti haqqında iştirakçılara məlumat verib, onlara uğurlar arzulayıblar.

Olimpiada çərçivəsində “Nuh yurdu”, “Kim? Nə? Hara?”, “Vətəni tanı” intellektual oyunları, “İntellektual gənc” bilik yarışması keçirilib.

Yekun nəticəyə əsasən “İntellektual gənc” bilik yarışmasında qalib adını Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin şagirdi Sahilə Yusifova qazanıb. Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdi Həbibə Babayeva ikinci, 11 nömrəli tam orta məktəbin şagirdi Əjdər Rzalı üçüncü olublar.

“Kim? Nə? Hara?” intellektual oyununda isə Heydər Əliyev adına tam orta məktəbin şagirdi Göyərçin Quliyeva rəqiblərini üstələyib. Digər iki pillədə 11 nömrəli tam orta məktəbin şagirdi Fidan Gülməmmədova və 14 nömrəli tam orta məktəbin şagirdi Anar Mikayılov qərarlaşıblar.

“Vətəni tanı” intellektual oyununun qalibi Naxçıvan Qarnizonu tam orta məktəbinin komandası olub. Naxçıvan Qızlar Liseyinin komandası və 16 nömrəli tam orta məktəbin komandası isə müvafiq olaraq ikinci və üçüncü olublar. “Nuh yurdu” intellektual oyununda “Hədəf” komandası birinci, “Zirvə” komandası ikinci, “Gülüstan” komandası isə üçüncülüklə kifayətləniblər.

Qaliblərə təşkilatçıların diplom, fəxri fərmanları və oxunması zəruri olan kitablar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

# *“Qırmızı papaq”* tamaşası Ordubad səhnəsində



***Fevralın 20-də Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı Ordubad Rayon Mədəniyyət Evində “Qırmızı papaq” tamaşasını uşaq və məktəblilərə göstərib.***

Tamaşadan əvvəl teatrın bədii rəhbər-direktoru, Xalq artisti Şirzad Abutalıbov çıxış edərək Naxçıvan Dövlət Kukla Teatrının keçdiyi yaradıcılıq yolu haqqında qısa məlumat verib.

“Qırmızı papaq” tamaşasında bütün nağıl-tamaşalarda olduğu kimi xeyrin şər, yaxşılığın pislik, ədalətin haqsızlıq üzərində qələbəsi əsas ideyadır. Sehrli nağıllardan fərqli olaraq burada baş verən hadisələr həyat və məişət üzərində qurulub.

Bu maraqlı tamaşada teatrın aktyorları Əfqanə Ələsgərova, Vəsmə Quliyeva, İlham Babayev, Süleyman Süleymanov, Ulduz Süleymanova və başqaları obrazları təbii canlandırırlar.

Tamaşanın quruluşçu rejissoru Nadir Hüseynov, tərtibatçı rəssamı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərli, bəstəkarı Əli Məmmədovdur.

**Əli RZAYEV**


## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqə elan edir*

*1. Riyaziyyat və tədrisi metodikası kafedrasının müdiri – 1 yer; 1 ştat, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əsasən müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətinədək qəbul edilir. Sənədləri rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərmək lazımdır.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1,***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: 545-32-02***
***Rektorluq***



### *İtmişdir*

Culfa rayonunun Bənəniyar kənd sakini İmanov Gülağa Müseyib oğlunun adına olan JN-983A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Qurbanov Hacı Nadir oğlunun adına olan torpaq sahəsinin MH-0009488 seriya nömrəli çıxarışı və AA-002427 inventar nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Qurbanova Əntiqə Nadir qızının adına olan torpaq sahəsinin AA-002426 inventar nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 158**